



AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

# İSLAHATLAR İCMALI

## VERGİ İSLAHATLARI - 2020

### Xüsusi buraxılış

Deloitte şirkətinin dəstəyilə

"Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər edilməsi haqqında" Qanun layihəsində nəzərdə tutulan islahatların şərhi





"APARILAN İSLAHATLAR NƏTİCƏSİNDƏ VERGİLƏR SİSTEMİNDƏ ŞƏFFAFLIQ TƏMİN EDİLİR, BİZNES DAİRƏLƏRİ ÜÇÜN VAHİD QAYDALAR TƏTBİQ OLUNUR."

**İLHAM ƏLİYEV**,
Azərbaycan Respublikasının
Prezidenti

# MÜNDƏRİCAT


Vergi ödəyicisi və vergi orqanlarının hüquq və vəzifələri ..... 3

Vergi nəzarəti ..... 5

Maliyyə sanksiyaları ..... 7

Elektron qaimə-faktura ..... 9

Mənfəət vergisi ..... 11

Əlavə dəyər vergisi ..... 13

Aksiz verigisi ..... 17

Sadələşdirilmiş vergi ..... 19

Riskli vergi ödəyiciləri ..... 22

Transmilli şirkətlər qrupu ..... 24

Digər dəyişikliklər ..... 26






# VERGİ ÖDƏYİCİSİ VƏ VERGİ ORQANLARININ HÜQUQ VƏ VƏZİFƏLƏRİ

# QANUN LAYİHƏSİNDƏ VERGİ ÖDƏYİCİLƏRİ VƏ VERGİ ORQANLARI ÜÇÜN YENİ HÜQUQ VƏ VƏZİFƏLƏR MÜƏYYƏN EDİLMİŞDİR

## YENİ ƏLAVƏLƏR

Vergi ödəyiciləri vergilər, məcburi dövlət sosial və işsizlikdən sığorta haqları, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələrlə bağlı vergi orqanlarından elektron və (və ya) kağız daşıyıcılarda üzləşmə aktı tələb edə bilər. Vergi orqanları üzləşmə aktını "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddətdə vergi ödəyicilərinə təqdim etməlidir.

Bina tikintisi fəaliyyəti ilə məşğul olan:

- 1 yanvar 2020-ci il tarixdən sonra tikinti-quraşdırma işlərinə başlamış;
- sadələşdirilmiş verginin ödəyicisi olmayan, 1 yanvar 2020-ci il tarixinədək tikinti-quraşdırma işlərinə başlamış, lakin tikintisi başa çatmayan, habelə bina üzrə təqdim edilməmiş yaşayış və qeyri-yaşayış sahələri olan şəxsləryaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi ilə bağlı hər bina üzrə forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən məlumatı hər il yanvar ayının 20-dək vergi orqanına təqdim etməlidir.

Əlavə olaraq, vergi ödəyicisi barədə əldə edilmiş vergi sirri və şəxsi həyata dair məlumatlara aşağıdakı istisnalar əlavə edilmişdir:

- vergi ödəyicisinin ƏDV-nin məqsədləri üçün qeydiyyatda olub-olmamasına dair məlumat;
- vergi ödəyicisinin sahibkarlıq fəaliyyətinin və ya digər vergi tutulan əməliyyatlarının müvəqqəti dayandırılıb-dayandırılmaması haqqında məlumat;
- riskli vergi ödəyiciləri haqqında məlumat.



# VERGİ NƏZARƏTİ

# VERGİ NƏZARƏTİ ÇƏRÇİVƏSİNDƏ AŞAĞIDAKI FORMADA YENİ ƏLAVƏLƏR QEYD EDİLMİŞDİR



## YENİ ƏLAVƏLƏR

Məcəlləyə edilən dəyişiklikliyə əsasən mərkəzləşdirilmiş qaydada uçota alınmalı olan vergi ödəyicilərinin meyarları artıq aşağıdakı kimi müəyyən ediləcək:

- təbii inhisar subyektləri;
- xüsusi vergi rejimli müəssisələr;
- işçilərin orta siyahı sayı 251 və daha yuxarı olan;
- balansında olan əsas vəsaitlərin orta illik qalıq dəyəri 5.000.000 manatdan yuxarı olan vergi ödəyiciləri.

Vergi Məcəlləsinin cari müddəalarına əsasən, vergi qanunvericiliyinin pozulmasıanından 3 il keçmişdirsə, şəxs həmin qanunvericiliklə bağlı hüquq pozuntusunun törədilməsinə görə məsuliyyətə cəlb edilə bilməz və vergi öhdəlikləri yarana bilməz. Təklif olunan dəyişikliyə əsasən bu hala istisna tətbiq edilir və xaricdə əldə olunan gəlirlər üzrə xarici dövlətlərin səlahiyyətli orqanlarından müvafiq məlumatlar daxil olduğu hallarda həmin gəlirlər üzrə yuxarıda qeyd edilən müddət 5 il olaraq müəyyən edilir.

POS-terminalların quraşdırılması məcburi olan obyektlərdə POS-terminalların quraşdırılması hallarına nəzarət edilməsi və POS-terminallar quraşdırılmış obyektlərdə plastik kartlar vasitəsilə nağdsız ödənişlərin qəbulundan imtina faktlarının müəyyən edilməsi operativ vergin əzarətinin əhatə dairəsinə daxil edilmişdir.



# MALİYYƏ SANKSİYALARI

# TƏQDİM EDİLMİŞ DƏYİŞİKLİKLƏR ÇƏRÇİVƏSİNDƏ YENİ MALİYYƏ SANKSİYALARI NƏZƏRDƏ TUTULMUŞDUR



## YENİ ƏLAVƏLƏR

Ödənişlərin qəbulundan imtina edilməsinə görə:

- təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 1.000 manat məbləğində;
- təqvim ili ərzində belə hallara ikinci dəfə yol verildikdə 3.000 manat məbləğində;
- təqvim ili ərzində belə hallara üç və daha çox dəfə yol verildikdə 6.000 manat məbləğində maliyyə sanksiyası tətbiq ediləcək.



# ELEKTRON QAİMƏ-FAKTURA

# TƏQDİM EDİLMİŞ DƏYİŞİKLİKLƏR ÇƏRÇİVƏSİNDƏ YENİ MALİYYƏ SANKSİYALARI NƏZƏRDƏ TUTULMUŞDUR



## YENİ ƏLAVƏLƏR

Vergi ödəyicisi elektron qaimə-fakturanı aşağıdakı müddətdə təqdim etməlidir:

- malların təqdim edilməsi - mallar göndərilən vaxt;
- əvvəlcədən sifariş edilməyən malların təqdim edilməsi - malların təhvil verilməsini təsdiq edən sənədin verildiyi tarixdən 5 gün müddətində;
- işlərin görülməsi və xidmətlərin göstərilməsi - işlərin görüldüyü və xidmətlərin göstərildiyi tarixdən 5 gün müddətində.

Eyni zamanda yeni dəyişikliklərə əsasən vergi ödəyicisi tərəfindən aparılan əməliyyatların xarakterindən asılı olaraq elektron qaimə-faktura növləri müəyyən olunub. Buna misal olaraq aşağıdakıları qeyd etmək olar:

- malların, işlərin və xidmətlərin təqdim edilməsi barədə;
- malların qaytarılması barədə;
- Vergi Məcəlləsinin 163-cü maddəsinə əsasən vergi tutulan dövriyyənin dəqiqləşdirilməsinə əsas verən hallarla bağlı;
- malların agentə (komisyonçuya) verilməsi barədə;
- agent (komisyonçu) tərəfindən malların alıcısına təqdim edilən;
- malların emala qəbul edilməsi barədə;
- Vergi Məcəlləsinin 177.5-ci maddəsinə əsasən.



# MƏNFƏƏT VERGİSİ

## YENİ ƏLAVƏLƏR

**Gəlirin əldə edilməsi ilə bağlı xərclər**: Vergi ödəyicisi tərəfindən vergiyə cəlb edilən əməliyyatlarla yanaşı, vergidən azad olunan əməliyyatlar da aparıldıqda həmin əməliyyatlar üzrə gəlirlərin və xərclərin uçotu ayrılıqda aparılmalıdır. Vergi ödəyicisi tərəfindən vergiyə cəlb olunan və vergidən azad olunan əməliyyatlar üzrə çəkilən, lakin bölüşdürülməsi mümkün olmayan xərclərin gəlirdən çıxılan məbləği vergidən azad edilən gəlirlərin vergi ödəyicisinin ümumi gəlirlərində xüsusi çəkisi əsasında müəyyən edilir. Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən dövlətə ayrılan hissə təqdim edildikdə, aktivlərə çəkilmiş məsrəflər gəlirdən çıxılan xərclərə aid edilir.

Yalan əqdlər çərçivəsində əldə edilmiş sənədlər gəlirdən çıxılan xərcləri təsdiq edən sənəd hesab edilmir və təqdim edilən malların dəyəri bazar qiyməti və vergitutma obyektləri ayrı-ayrı hallarda müəyyən edilməsi qaydaları nəzərə alınmaqla gəlirdən çıxılır.

Gəlirin və xərcin uçot qaydası bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi ilə bağlı gəlir və bu gəlirdən çıxılan xərclər vergi ili ərzində alqı-satqı müqavilələri üzrə nəzərdə tutulan ƏDV-siz məbləğlər və təqdim edilən həmin sahələrin tikintisinə çəkilən məsrəflər əsasında müəyyən edilir.



# ƏLAVƏ DƏYƏR VERGİSİ

# QANUN LAYİHƏSİNDƏ ƏDV-NİN ƏVƏZLƏŞDİRİLMƏSİ İLƏ BAĞLI DA BİR SIRA MÜDDƏALAR REDAKSİYA EDİLMİŞDİR



## YENİ DƏYİŞİKLİKLƏR

Elektron vergi hesab faktura ləğv edilir. Bundan sonra vergi ödəyiciləri ƏDV məqsədləri üçün təkcə elektron qaimə faktura təqdim edəcəklər.

Artıq ƏDV məqsədləri üçün vergi tutulan əməliyyatın vaxtı təqdim edilən mallar (işlər və xidmətlər) üçün **ödəmənin aparıldığı vaxt** (ödəmə mallar (işlər və xidmətlər) təqdim edilmədən sonra aparılarsa) əsasında müəyyən ediləcək. Mallar (işlər və xidmətlər) təqdim edilənədək ödəmə aparıldığı təqdirdə malların (işlərin, xidmətlərin) təqdim edildiyi vaxt vergi tutulan əməliyyatın vaxtı sayılacaq. Ödəmə dedikdə isə aşağıdakılar nəzərdə tutulur:

- nağd pul vəsaitini aldığı, nağdsız ödəmədə isə pul vəsaitinin bankda onun hesabına və ya sərəncamçısı ola biləcəyi hesaba, yaxud göstərilən vəsaiti almaq hüququna malik olacağı hesaba daxil olduğu vaxt;
- maliyyə öhdəliyinin ləğv edildiyi və ya ödənildiyi halda (qarşılıqlı hesablaşmalar aparıldıqda və sair bu kimi hallarda) öhdəliyin ləğv edildiyi və ya ödənildiyi vaxt;
- natura şəklində aparıldıqda, habelə barter edildikdə, aktivlərin təqdim edildiyi vaxt;
- əvəzsiz təqdim edildiyi hallarda təqdimetmənin həyata keçirildiyi vaxt hesab edilir.

# QANUN LAYİHƏSİNDƏ YER ALAN ƏN ƏSAS DƏYİŞİKLİKLƏRDƏN BİRİ DƏ ELEKTRON VERGİ HESAB FAKTURANIN LƏĞVİ İLƏ BAĞLIDIR



## YENİ DƏYİŞİKLİKLƏR

Elektron vergi hesab faktura ləğv edilir. Bundan sonra vergi ödəyiciləri ƏDV məqsədləri üçün təkcə elektron qaimə faktura təqdim edəcəklər .

ƏDV-nin əvəzləşdirilməsi ilə bağlı da Vergi Məcəlləsinə yeni maddələr əlavə edilib. Belə ki, ƏDV-nin əvəzləşdirilməsi zamanı aşağıdakı şərtlər nəzərə alınmalıdır:

- malların (işlərin, xidmətlərin) alışı sahibkarlıq fəaliyyəti və ƏDV tutulan əməliyyatların məqsədləri üçün olsun;
- əməliyyatın dəyəri yəni əsas məbləğ bank hesabı vasitəsilə köçürülsün;
- ƏDV məbləği ƏDV-nin depozit hesabına ödənilsin.

Malların (işlərin, xidmətlərin) barter edilməsi həmin əməliyyatın ƏDV-siz dəyərinin malları (işləri, xidmətləri) təqdim edən şəxsin bank hesabına ödənilməsinə bərabər tutulur.

Bundan əlavə aşağıdakı sənədlər **ƏDV-nin əvəzləşdirilməsinə əsas vermir**:

- Qəbzlər, çeklər və nağd qaydada aparılan əməliyyatların rəsmiləşdirildiyi sənədlər;
- Yalan əqdlər çərçivəsində aparılan əməliyyatlar üzrə rəsmiləşdirilən sənədlər;
- Riskli vergi ödəyicisindən əldə edilmiş elektron qaimə-faktura.

## VERGİ AZADOLMALARI

Heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən yem və yem əlavələrinin satışı üzrə dövriyyələr - 2020-ci il yanvarın 1-dən 4 il müddətinə;

Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən tikilən binanın yaşayış sahəsinin dövlətə ayrılan hissəsinin təqdim edilməsi;

Siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən dövlət adından yaradılan publik hüquqi şəxslər tərəfindən nizamnaməsində nəzərdə tutulan və ona həvalə edilən vəzifələrin yerinə yetirilməsi üçün büdcə qanunvericiliyinə uyğun olaraq dövlət büdcəsindən ayrılmış vəsait hesabına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə bağlanılmış müqavilə əsasında işlərin və xidmətlərin göstərilməsi 2020-ci il yanvarın 1-dən 1 il müddətinə.



# AKSİZ VERGİSİ

# AKSİZ VERGİSİ İLƏ BAĞLI VERGİ ARTIMINI AŞAĞIDA MÜQAYİSƏLİ ŞƏKİLDƏ GÖRƏ BİLƏRSİNİZ

| AKSİZLİ MƏHSULUN ADI | HAZIRDA QÜVVƏDƏ OLAN | TƏKLİF EDİLƏN DƏYİŞİKLİK |
|---|---|---|
| içməli spirt (o cümlədən tərkibində 80 faizdən az spirt olmayan denaturlaşdırılmamış etil spirti; tərkibində 80 faizdən az spirt olan denaturlaşdırılmamış etil spirti) | hər litrinə - 2,0 manat | hər litrinə - **3,2 manat** |
| araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likyor və likyor məmulatları | hər litrinə - 2,0 manat | hər litrinə - **3,2 manat** |
| konyak və konyak materialları | hər litrinə - 6,0 manat | hər litrinə - **3,2 manat** |
| şampan şərabı | hər litrinə - 2,5 manat | hər litrinə - **2,6 manat** |
| şərablar və şərab materialları | hər litrinə - 0,1 manat | hər litrinə - **0,2 manat** |
| pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli - digər içkilər | hər litrinə - 0,2 manat | hər litrinə - **0,5 manat** |
| siqarilla (nazik siqarlar) | 1.000 ədədinə - 20,0 manat | 1.000 ədədinə - **31,0 manat** |
| tütündən hazırlanan siqaretlər və onun əvəzediciləri | 1.000 ədədinə - 20,0 manat | 1.000 ədədinə - **31,0 manat** |
| alkoqollu energetik içkilər | hər litrinə - 2,0 manat | hər litrinə - **2,1 manat** |
| alkoqolsuz energetik içkilər | hər litrinə - 3,0 manat | hər litrinə - **3,1 manat** |



# SADƏLƏŞDİRİLMİŞ VERGİ

# QANUN LAYİHƏSİNDƏ SADƏLƏŞDİRİLMİŞ VERGİ İLƏ BAĞLI BİR SIRA DƏYİŞİKLİKLƏR ƏZƏRDƏ TUTULMUŞDUR



## DƏYİŞİKLİKLƏR

Bəzi sadələşdirilmiş vergi ödəyiciləri üçün aylıq sabit vergi məbləği azaldıldı:

- Toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət 30 manatdan 20 manata;
- Fərdi foto, audio-video xidmətləri (foto studiyalar istisna olmaqla) sahəsində fəaliyyət 30 manatdan 15 manata endirildi.

Artıq bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər sadələşdirilmiş vergi ödəyicisi ola bilməz.

Hal-hazırda sadələşdirilmiş vergi ödəyicisi hüququ olmayan topdansatış ticarət fəaliyyəti qaydasında malların təqdim edilməsini həyata keçirən şəxslərin və vergi ödəyicisi kimi uçotda olmayan şəxslərə (əhaliyə) göstərilən xidmətlərdən başqa, xidmət göstərən şəxslərin aşağıdakı hallarda sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ saxlanılır:

- pərakəndə satış qaydasında malların təqdim edilməsini həyata keçirən vergi ödəyicisi eyni zamanda topdansatış qaydasında malların satışını həyata keçirdikdə, rüb ərzində elektron qaimə-faktura ilə rəsmiləşdirilməli olan əməliyyatların həcmi ümumi ticarət əməliyyatlarının (satışdankənar gəlirlər istisna olmaqla) həcminin 30 faizindən çox olmadıqda;
- vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan şəxslərə (əhaliyə) göstərilən xidmətlərdən başqa, xidmətlərin göstərilməsini həyata keçirən şəxslər tərəfindən əhaliyə xidmətlə yanaşı hüquqi şəxslərə və vergi ödəyicisi kimi vergi orqanında uçotda olan fiziki şəxslərə xidmətlərin göstərilməsi həyata keçirilirsə, rüb ərzində elektron qaimə-faktura ilə rəsmiləşdirilməli olan əməliyyatların həcmi xidmətlərin göstərilməsi üzrə ümumi əməliyyatların (satışdankənar gəlirlər istisna olmaqla) həcminin 30 faizindən çox olmadıqda.

## GÜZƏŞTLƏR VƏ AZADOLMALAR

Qanunla müəyyən edilmiş hallarda dövlət büdcəsinə olan vergi borclarının silinməsindən əldə olunan gəlir mənfəət və gəlir vergiləri ilə yanaşı artıq sadələşdirilmiş vergidən də azad olacaq.

ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan və əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatadək olan rezident müəssisənin təsisçisi (payçısı) və yaxud səhmdarları olan şəxslərə ödənilən dividend vergidən azad ediləcək.

Mülkiyyətdə olan yaşayış və qeyri-yaşayış sahələrinin, habelə torpaq sahələrinin təqdim edilməsi üzrə aşağıdakı təqdim edilmə halları:

- fiziki şəxslər tərəfindən azı 3 təqvim ili (hal-hazırda bu müddət 5 il olaraq müəyyən edilir) ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi;
- hədiyyə, maddi yardım və miras vergi ödəyicisinin ailə üzvlərindən alındığı halda, onun tam dəyəri;
- "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən fiziki və hüquqi şəxslərə ödənilən kompensasiya;
- fiziki şəxslərin xüsusi mülkiyyətində olan yaşayış sahələrinin 30 kvadratmetr olan sahəsi vergidən azaddır.

Pərakəndə satış qaydasında malların satışının həyata keçirilməsi üzrə ticarət fəaliyyəti və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən büdcəyə ödənilməli olan verginin məbləği 2019-cu il yanvarın 1-dən 3 il müddətinə "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş POS-terminal vasitəsilə nağdsız qaydada aparılan ödənişlərin ümumi hasilatdakı xüsusi çəkisinə uyğun müəyyən edilən verginin 25 faizi həcmində azaldılır.



# RİSKLİ VERGİ ÖDƏYİCİLƏRİ

# QANUN LAYİHƏSİNDƏ VERGİ MƏCƏLLƏSİNƏ RİSKLİ VERGİ ÖDƏYİCİSİ ANLAYIŞININ DAXİL EDİLMƏSİ NƏZƏRDƏ TUTULMUŞDUR. SÖZÜGEDƏN RİSKLİ VERGİ ÖDƏYİCİLƏRİ İLƏ BAĞLI BİR SIRA MƏHDUDİYYƏTLƏR NƏZƏRDƏ TUTULMUŞDUR

## RİSKLİ VERGİ ÖDƏYİCİSİNİN TƏRİFİ

- **Riskli vergi ödəyicisi** - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı ilə təsdiq edilmiş meyarlara uyğun olan və barəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı olan vergi ödəyicisidir.

## RİSKLİ VERGİ ÖDƏYİCİSİ İLƏ BAĞLI DİGƏR MÜDDƏALAR

- Vergi ödəyicisi riskli vergi ödəyicisi olduğu halda vergi orqanları tərəfindən operativ vergi nəzarəti və növbədənkənar vergi yoxlaması keçirilə bilər;
- Vergi ödəyicisinin riskli vergi ödəyicisi olması vergi sirri sayılmayacaq;
- Riskli vergi ödəyicisindən mal (iş və xidmət) alan vergi ödəyiciləri ödədikləri müvafiq ƏDV məbləğlərini əvəzləşdirə bilməyəcəklər.



# TRANSMİLLİ ŞİRKƏTLƏR QRUPU

# QANUN LAYİHƏSİNDƏ VERGİ MƏCƏLLƏSİNƏ TRANSMİLLİ ŞİRKƏTLƏR QRUPU ANLAYIŞININ DAXİL EDİLMƏSİ NƏZƏRDƏ TUTULUR



## TRANSMİLLİ ŞİRKƏTLƏR QRUPU NƏDİR?

**Transmilli şirkətlər qrupu** - müxtəlif ölkələrdə rezident olan iki və ya daha çox şirkətin daxil olduğu və ya bir ölkədə rezident olan və başqa ölkədə daimi nümayəndəlik vasitəsilə fəaliyyət göstərən şirkətin daxil olduğu şirkətlər qrupudur.

## TRANSMİLLİ ŞİRKƏTLƏR QRUPUNA AİD OLAN VERGİ REZİDENTİ MÜƏSSİSƏLƏRİN HESABAT ÖHDƏLİYİ

Transmilli şirkətlər qrupunun maliyyə ilində məcmu gəliri 750 milyon avronun manat ekvivalentindən çox olduqda, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr çərçivəsində digər dövlətlərin səlahiyyətli orqanları ilə avtomatlaşdırılmış məlumat mübadiləsinin həyata keçirilməsi məqsədilə transmilli şirkətlər qrupuna daxil olan və Azərbaycan Respublikasının rezidenti olan müəssisə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş formada və qaydada hesabatı vergi orqanına təqdim edir.



# DİGƏR DƏYİŞİKLİKLƏR

## VERGİ AZADOLMALARI

Müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarının rezidentləri üçün gəlir, mənfəət, əmlak və torpaq vergiləri üzrə azadolma müddəti daha 3 il artırılaraq 10 il müddətinədək uzadılır;

Dövlət büdcəsinin vəsaiti hesabına ödənilən ixrac təşviqi gəlir, mənfəət və sadələşdirilmiş vergidən azad olacaq;

Azərbaycan Respublikasında keçirilən Formula 1 və Formula 2 yarışlarına aid qeyri-maddi aktivlər üzərində müəllif hüquqlarından istifadə olunmasına, yaxud istifadə hüquqlarının verilməsinə görə qeyri-rezident hüquqi şəxsə ödənilən royalti gəlirləri - 2018-ci il yanvarın 1-dən 6 il müddətinə gəlir vergisindən azad olacaq. Eləcə də Formula 1 və Formula 2 yarışları ilə bağlı mal iş və xidmətlərin təqdim olunması eyni müddətə ƏDV-dən azad olacaq;

Mikro sahibkarlıq subyekti olan şəxslər üzrə əmlak vergisindən azadolma  mülkiyyətində olan əsas vəsaitlərin ilin əvvəlinə qalıq dəyəri 1.000.000 manatdan artıq olan şəxslər üçün istisna edilib.

# DİGƏR DƏYİŞİKLİKLƏR

**Malların alış aktı**: Hüquqi və fiziki şəxslər tərəfindən təsərrüfat fəaliyyəti məqsədilə fiziki şəxslərə mal təqdim edilən zaman malların alışı tarixindən 5 gün müddətində forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən **elektron alış aktı** tərtib edilməsi nəzərdə tutulur. Elektron alış aktı çap edilərək alıcı tərəfindən imzalandığı halda malın alışını təsdiq edən sənəd hesab ediləcək.

Elektron informasiya sisteminə real vaxt rejimində qoşulmuş nəzarət-kassa aparatını quraşdıran vergi ödəyicisi hər bir nəzarət-kassa aparatının quraşdırılmasına çəkilən xərclərin (nəzarət-kassa aparatının dəyəri daxil olmaqla) dəyərini müəyyən edilən həddə nəzarət-kassa aparatı quraşdırıldıqdan sonra yaranan vergi öhdəlikləri ilə aşağıdakı hallar istisna olmaqla əvəzləşdirə biləcək.

- nəzarət-kassa aparatı 2019-cu il 1 yanvar tarixədək quraşdırıldıqda;
- nəzarət-kassa aparatı 2019-cu il 1 yanvar tarixindən sonra quraşdırıldıqda, lakin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən meyarlara cavab vermədikdə;
- nəzarət-kassa aparatı 2019-cu il 1 yanvar tarixindən sonra quraşdırıldıqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən meyarlara cavab verdikdə, lakin əvvəllər istifadədə olan nəzarət-kassa aparatını əvəzləmədikdə.

## KEÇİD MÜDDƏALARI

2020-ci il 1 yanvar tarixinədək alınmış mallara, işlərə və xidmətlərə görə ödənilən ƏDV-nin əvəzləşdirilməsi Qanun layihəsi qüvvəyə minənədək mövcud olan qaydada həyata keçirilir. Alınmış mallara, işlərə və xidmətlərə görə ödənilmiş ƏDV-nin elektron qaimə-faktura ilə əvəzləşdirilməsi 2020-ci il 1 yanvar tarixindən sonra aparılan əməliyyatlara münasibətdə tətbiq ediləcək.

Qanun layihəsi qüvvəyə minənədək tikinti obyektinin tikinti-quraşdırma işlərinə başlamış və sadələşdirilmiş vergitutma metodunu tətbiq edən vergi ödəyicisi həmin tikinti-quraşdırma işləri üzrə vergiləri bu Qanun layihəsi qüvvəyə minənədək mövcud olan qaydada ödəyəcək.

Tikinti-quraşdırma işlərinə 2019-cu il 1 dekabr tarixindən başlamış vergi ödəyicisi həmin tikinti-quraşdırma işləri üzrə seçdiyi vergitutma metodu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunmuş məlumat formasını 2020-ci il 1 yanvar tarixinədək təqdim etmədikdə tikilən binalar üzrə yaranan vergi öhdəlikləri yeni Qanunla müəyyən olunmuş qaydada yerinə yetiriləcək.






Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

iqtisadiislahat.org
ereforms.org
ecoreform.az
Bakı, Yasamal rayonu, Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org


Bakı, 2019